BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2012*

UOT 94 (479.24)

# AZƏRBAYCAN SSR-DƏ MÜSTƏQİL XARİCİ İQTİSADİ SİYASƏT YERİTMƏK CƏHDLƏRİ VƏ SOVET GÖMRÜK İDARƏÇİLİYİNİN TƏŞKİLİ (1920-1923-cü illər)

**R.Ə.QULİYEV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***rofetquliev@mail.ru***

*Məqalədə Azərbaycanda sovet dövlət quruculuğu tədbirlərinin tərkib hissəsi olan gömrük idarəçiliyi və xarici ticarət əlaqələrinin təşkili sahəsində görülən tədbirlər araşdırılır. Bu sahədə nisbətən müstəqil addımların və təşəbbüslərin yer aldığı 1920-1921-ci illərdən fərqli olaraq, sonrakı mərhələdə respublika ərazisində yerləşən gömrükxanaların işinə nəzarət tədricən mərkəzi sovet orqanlarının səlahiyyətinə verildi. Ölkənin xarici ticarət əlaqələri və gömrük xidmətinə Rusiya nümayəndələri nəzarət edirdi. Azərbaycan SSR-də müstəqil xarici iqtisadi siyasət yeritmək cəhdlərinin qarşısının alınmasında əsas məqsəd ölkəmizin zəngin təbii sərvətləri hesabına sovet Rusiyası üçün iqtisadi dividentlər əldə etmək idi.*

**Açar sözlər:** sovet gömrüyü, gömrük tarifi, xarici iqtisadi siyasət

Azərbaycan Respublikasının dövlətçilik tarixində gömrük ənənələri mühüm yer tutur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil gömrük siyasəti yeridilirdi. Lakin 1920-ci ilin 28 aprelində baş vermiş sovet-bolşevik işğalı nəticəsində müstəqil gömrük sistemimiz ləğv edildi [16, 374-394].

Sovet dövlət aparatının yaradıldığı ilk aylar ərzində Azərbaycan SSR-nin xarici ölkələrlə ticarət əlaqələri nisbətən sərbəst həyata keçirilirdi. Əslində, bir müddət qanunverici və icra hakimiyyətini ələ alan Azərbaycan İnqilab Komitəsinin tərkibində yaradılan ticarət şöbəsi xarici ticarət və gömrük işlərinə nəzarət edirdi. Az sonra xarici ticarət məsələlərinin həlli ilə 1920-ci ilin mayında yaradılan Xalq Təsərrüfatı Şurası (XTŞ) məşğul olmağa başladı. İlk vaxtlar Azərbaycan XTŞ-nin gömrük işinin müxtəlif sahələrinə aid bir sıra qərarlar respublikanın xarici ticarət və gömrük-tarif siyasətinin müstəqil surətdə həyata keçirilməsi məqsədini güdürdü. Məsələn, XTŞ 22 may 1920-ci il tarixli qərarı ilə xüsusi icazə olmadan bütün gömrükxana, dəmiryolu stansiyaları və nəqliyyat kontorlarına məxsus anbarlardan, o cümlədən ictimai və şəxsi müəssisələrdən müxtəlif növdə xam dəri, sulfat turşusu, anilin boyaq və s. malların buraxılması qadağan edilirdi. Bu qərarın müddəalarını pozan

şəxslərə inqilab dövrünün sərt qanunları ilə cəza veriləcəyi haqqında xəbərdarlıq edilirdi [3, 3].

Aprel çevrilişindən dərhal sonra Azərbaycan İnqilab Komitəsinin1920-ci il 24 may tarixli dekreti ilə neft sənayesi, 6 iyun tarixli dekreti ilə Xəzər ticarət donanması, iyunun 9-da banklar və iyunun 15-də isə balıq sənayesi milliləşdirildi. Digər qurumlarla yanaşı, ticarət, maliyyə və xarici ticarət xalq komissarlıqları Xalq Komissarları Şurasının tərkibinə daxil edildi. Sənaye, bank və nəqliyyat sahələrində olduğu kimi xarici ticarət sahəsində də inhisarçı mövqelər sovet dövlətinin əlinə keçdi. Tezliklə Xəzər ticarət donanmasının gəmiləri Bakı neftini Həştərxana daşımağa başladılar. Təkcə 1920-ci il aprelin 30-dan mayın 2-dək Həştərxana 12 gəmi ilə 1,3 mln. pud neft aparılmışdı [12, 264].

Xalq Ərzaq Komissarlığının "Ərzaq məhsulları və ilkin tələbat mallarının sərbəst daşınması normaları haqqında" 1920-ci il 27 may tarixli qərarını Azərbaycanın sovet dövrü gömrük tənzimlənməsi qaydalarını təcəssüm etdirən ilk sənəd hesab etmək olar. Ərzaq komissarı Q. Musabəyovun imzaladığı sənəddə sərhəddən müəyyən edilən miqdarda daşınmasına icazə verilən ərzaq mallarının siyahısı dərc olunmuşdu. Təsdiq edilən ixrac siyahısından kənar ərzağın sərhəddən keçirilməsi tamamilə qadağan edilirdi. Göstərilən ixrac normalarının dərcindən sonra əvvəllər qəbul edilmiş eyni xarakterli bütün sərəncamlar ləğv edildi [6, 226-227].

Azərbaycan SSR XTŞ-nin 3 iyun 1920-ci ildə keçirilən yığıncağında gömrük sərhədini keçərkən fiziki şəxslər, hərbi qulluqçular və gəmi heyəti tərəfindən normadan artıq ərzaq məhsulları və ilkin tələbat mallarının daşınması üzərində nəzarətin daha da gücləndirilməsi müzakirə edildi. Sərnişinlərin, gəmi heyəti və hərbi qulluqçuların əl yüklərində apardıqları ərzaq və digər tələbat mallarının normalarının müəyyən edilməsi Ərzaq Komissarlığına tapşırıldı. Dəniz yolu ilə hərəkət edən sərnişinlərin yüklərinə gömrük baxışını Su nəqliyyatı idarəsi, quru yollar və dəmiryolunun sərhəd keçidlərində isə Maliyyə Nazirliyinin tabeçiliyində olan gömrük mühafizəsi həyata keçirirdi [3, 27].

1920-ci ilin may ayında Bakı gömrükxanasında qeydiyyat və nəzarət işləri, demək olar ki, tamamilə dayanmışdı. Bunu nəzərə alan gömrük şöbəsinin rəisi Maliyyə komissarına yazdığı 12 iyul 1920-cil tarixli məktubunda Bakı gömrükxanasının şəxsi heyətinin ümumi sayının 11 ştat vahidi qədər ixtisarını təklif etmişdi [4, 118].

Azərbaycanın xarici ölkələrdə iqtisadi əlaqələrinin təşkil edilməsi üçün görülən tədbirlərdən biri də 1920-ci il iyunun 1-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri N.Nərimanovun imzaladığı "Xarici ticarət inhisarı" adlı dekret oldu. Bu dekretə əsasən xarici ticarət dövlət inhisarına alındı. İdxal və ixrac əməliyyatları yalnız Azərbaycan Hökumətinin icazəsi ilə həyata keçirilməli idi.

Azərbaycan SSR Xarici Ticarət Komissarlığı (XTK) 1920-ci il iyulun 29-da təşkil olundu. Komissarlığın əsas vəzifəsi bir sıra ölkələrlə ticarət əlaqələrinin bərpa olunması və xarici ticarətin dövlət inhisarına alınmasına nail olmaq idi. Qısa müddət ərzində bir sıra Avropa ölkələrinin, o cümlədən

İtaliya, Almaniya, Fransa və İsveçrənin ticarət şirkətləri ilə əlaqələr yaradıldı. Batum limanı vasitəsilə respublikaya zəruri texniki avadanlıqlar, metal məmulatları, elektrik avadanlıqları, kənd təsərrüfatı alətləri və kütləvi istehlak malları (dərman preparatları, paltar, ayaqqabı, qənd, çay və s.) idxal edilirdi. Azərbaycandan isə bu ölkələrə xalça və ipək məmulatı, qaragül dəri, qara kürü, yun və s. mallar göndərilirdi.

Azərbaycan Hərbi İnqilab Komitəsinin 19 iyul 1920-ci il tarixli dekreti ilə dövlət sərhəd xəttindən 7 verst aralı məsafədə malların daşınmasına icazə sənədinə yalnız Azərbaycan İnqilab Komitəsinin xarici ticarət üzrə xüsusi müvəkkili və ya onun təyin etdiyi digər səlahiyyətli şəxslər imza edə bilərdi. Azərbaycan İnqilab Komitəsinin 26 avqust 1920-ci il dekretinə əsasən taxıl ticarəti də dövlət inhisarına alındı. Yerlərdə taxıl və taxıl məhsullarının daşınmasına nəzarəti Ərzaq Komissarlığı və onun yerlərdəki agentləri həyata keçirirdi. Gömrük rüsumları şöbəsinin müvafiq təlimatı ilə Bakı quberniyası ərazisində yerləşən gömrük məntəqələrində taxıl məhsullarının qaçaqmalçılığına qarşı yönəldilən tədbirlər gücləndirildi [3, 74,76,79].

Müvəqqəti İnqilab Komitəsi xarici ticarətin milliləşdirilməsi və mal mübadiləsi üzərində müstəsna səlahiyyətlərin XTK-ya verilməsi haqqında dekret qəbul etdi. Xarici dövlət, ictimai təşkilat və fiziki şəxslərlə ticarət sövdələşmələri yalnız bu komissarlıq vasitəsilə aparılmalı idi. Maliyyə Komissarlığının Gömrük şöbəsində aşağıdakı məzmunda təlimat hazırlanmış və 1920-ci il sentyabrın 13-də yerli gömrükxanalara göndərilmişdi: “heç bir müəssisə, təşkilat və ya fiziki şəxsin XTK və onun xaricdəki orqanlarının qərarı ilə müəyyən edilmiş qaydalardan kənar idxal-ixrac sövdələşməsi aparmağa hüququ yoxdur, bundan sonra idxal və ixracla bağlı sövdələşmələr yalnız mərkəzdə, yəni Bakıda həyata keçirilməlidir”.

1920-ci ilin sentyabrın 30-da Moskvada Azərbaycan SSR ilə RSFSR arasında hərbi-iqtisadi ittifaq haqqında imzalanan müqavilənin şərtlərinə görə, hər iki hökumət qısa müddət ərzində hərbi təşkilat və hərbi qərargahlarını, xalq təsərrüfatını və xarici ticarəti, təchizat, dəmiryolu və su nəqliyyatını, poçt-teleqraf və maliyyə orqanlarının fəaliyyətini (gömrük xidməti də daxil olmaqla) birləşdirməli idi. Rusiya ilə xarici ticarət məsələlərini əhatə edən sazişə görə, Cənubi Qafqaz respublikaları, İran və Türkiyə ilə aparılan ticarət əməliyyatlarına rəhbərlik müvəqqəti də olsa, Azərbaycan SSR Xarici Ticarət Komissarlığına verildi [3, 86].

Lakin bu vəziyyət uzun sürmədi. 1921-ci il aprelin 26-da Cənubi Qafqaz respublikalarının Tiflisdə keçirilən yığıncağında Cənubi Qafqaz Xarici Ticarət İdarəsinin (CQXTİ) yaradılması və avqustun 7-də RSFSR-in analoji qurumu ilə əməkdaşlıq müqaviləsinin bağlanması çox mətləblərə aydınlıq gətirdi. Cənubi Qafqaz respublikaları xarici iqtisadi-ticarət fəaliyyətlərini RSFSR-in xarici ticarətə rəhbərlik edən dövlət qurumlarının tərtib etdiyi qaydalar əsasında həyata keçirə bilərdi [1, 127; 14, 95]. Ali İqtisad Şurasının sovet respublikaları ilə həmsərhəd ərazilərdə gömrük müəssisələrinin ləğv edilməsi

haqqında 11 iyul 1921-ci il tarixli qərarından sonra şimal və qərb sərhədlərində yerləşən məntəqələr ləğv edildi. 1921-ci ilin sentyabrından isə neft sənayesi və ona tabe olan sahələr Azərbaycan XTŞ-nin tərkibindən çıxarılaraq birbaşa Moskvaya tabe edilmişdi [12, 307].

1921-ci il aprelin 14-də Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları iqtisadi sahədə "əməkdaşlığını gücləndirmək" məqsədilə, əslində isə RSFSR rəhbərliyinin strateji məqsədlərinə uyğun olaraq Cənubi Qafqaz dəmiryolundan istifadə haqqında, iyunun 2-də isə xarici ticarətin bir mərkəzdən idarə edilməsi haqqında saziş imzaladılar. RSFSR-in diktəsi ilə üç respublikanı təmsil edən nümayəndələrin daxil olduğu kollegiyanın rəhbərlik etdiyi vahid xarici ticarət idarəsi yaradıldı. 1922-ci ildən başlayaraq Azərbaycan SSR-in xarici ölkələrlə ticarət əlaqələrinin inkişaf etdirilməsində Bakıda keçirilən beynəlxalq yarmarkaların təşkilinə mühüm əhəmiyyət verilirdi. V.İ.Lenin 1921-ci il iyulun 14-də Q.Orconikidzeyə göndərdiyi teleqramda "Bakı üçün və xarici ticarətin inkişafı üçün nə etdiyinizi bildirin" və sentyabrın 21-də N.Nərimanova göndərdiyi teleqramda "Vilayət Xarici Ticarət İdarəsinin və RKP (b) MK-nın icazəsi olmadan nə almanlarla, nə də başqa heç kəslə xarici ticarət müqaviləsi bağlamayın" kimi göstərişlər verməklə bu məsələnin tamamilə RSFSR-in səlahiyyətlərinə aid olmasında israr edirdi [19, 12, 252].

Batum və Poti limanlarından keçməklə Tiflis və ya Bakıya ünvanlanan Avropa mənşəli mallara görə rüsumlar mal sahibinin arzusu ilə daxil olduğu gömrükxanada deyil (Batum və ya Poti), malın göndərildiyi gömrükxanada (Tiflis və ya Bakı) Asiya mənşəli mallardan isə, eyni qaydada, Bakı, Culfa və Aleksandropoldan Tiflis, Bakı, Batum və Potiyə göndərildikdə ödənilməli idi [2, 131-132]. Türkiyənin neftə olan tələbatının çox hissəsi Azərbaycan vasitəsilə ödənilirdi. Məsələn, Cənubi Qafqaz gömrük idarəsinin məlumatında "Azərneftsindikat"ın yalnız Batum limanı vasitəsilə Türkiyəyə 1922-ci ildə 9294 ton yanacaq nefti və 340 ton benzin göndərməsi bildirilirdi [22, 443-444].

Bu sahədə səlahiyyətlərin Moskvanın əlində cəmləşməsi üçün səylər göstərilirdi. Məsələn, Cənubi Qafqaz vilayət xarici ticarət idarəsindən (Obvneştorq) Azərbaycan hökumətinə ünvanlanan 10 fevral 1922-ci il tarixli 2100 saylı məktubda həm Rusiya, həm də Cənubi Qafqaz respublikalarında dərman bitkilərinə olan ehtiyacı nəzərə alıb, sərhəddən buraxılmaması haqqında Azərbaycan gömrüyünə göstəriş verilməsi xahiş edilirdi [7, 463-464].

Azərbaycanın neft məhsullarını RSFSR-in xarici ticarət orqanları ilə razılaşmadan nisbətən aşağı qiymətlərlə İrana satması Londonda olan sovet xarici ticarətinin əsas ideoloqu və təşkilatçısı L.B.Krasin etirazla qarşılamışdı. O, Qərbi Avropa bazarında neft satışından əldə edilən gəlirlərinin aşağı düşməsini əsas göstərərək Moskvadan bu "anarxiyaya" son qoyulmasının vacib olmasını bildirmişdi [24, 180].

Azərbaycanın müstəqil xarici iqtisadi siyasət yeritmək cəhdlərinin qarşısının alınması üçün tədbirlər ardıcıl surətdə davam etdirilirdi. Bu sahədə növbəti addım 1922-ci il martın 12-də Azərbaycan XTK-nin ləğv edilməsi oldu. Xarici

ticarət əməliyyatlarının vahid bir mərkəzdən idarə edilməsi səlahiyyətləri yeni təşkil olunmuş Cənubi Qafqaz Xarici Ticarət Komissarlığına (CQXTK) verildi. Bu komissarlığın ayrı-ayrı respublikalarda, o cümlədən Azərbaycan şöbəsi yaradıldı, az sonra dövlət idxal-ixrac kontorları ilə əvəz olundu [10, 3].

1922-ci ilin aprelində təsdiq edilən "Azərbaycan SSR-də gömrük nəzarəti haqqında Əsasnamə"yə görə Gömrük İdarəsi Maliyyə Komissarlığının tərkibinə verildi. Sənədə əsasən, xarici ticarətdə valyutaya satılan malların və digər predmetlərin idxal və ixracının tənzimlənməsi sahəsində bütün tədbirlərin görülməsi" Gömrük İdarəsinə tapşırıldı [5, 1; 15, 157].

Azərbaycan SSR XKŞ 1922-ci ilin mayın 14-də Bakı yarmarkasının təşkili barədə qərar qəbul etdi. Tərkibində iki nəfər azərbaycanlı mütəxəssisin də olduğu (A.Qulubəyov və A.Mahmudbəyov) Yarmarka Komitəsi yaradıldı [13, 55-59; 18; 19, 1922,17 sentyabr, 2 oktyabr].

1922-ci ilin sentyabrında Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı Hökumətə göndərdiyi məktubda İranın ölkəmizdəki diplomatik nümayəndəliyinin 20 min pud pambıq mahlıcının Batuma maneəsiz və gömrük rüsumuna cəlb edilmədən daşınması haqqında müraciət etdiyi bildirilirdi [8, 414-414[arx.]]

RSFSR hökuməti Bakı neftinin xaricə satılmasından daxil olan külli miqdarda gəlirlərdən Azərbaycana cüzi pay ayırırdı. 1922-ci ilin iyununa kimi Azneftin hesabına gəlirin cəmi 1,5 trilyon manatının, daha doğrusu, cəmi 2 faizinin köçürülməsi ölkəmizin təbii sərvətlərindən əldə edilən külli miqdarda gəlirlərin mənimsənilməsini sübut edən minlərlə faktlardan biri idi [11, 96].

N.Nərimanovun imzası ilə 11 oktyabr 1922-ci ildə "İdxal və ixrac vergilərinin tətbiq edilməsi haqqında" dekreti təsdiq edildi. CQSFSR İttifaq Soveti ilə RSFSR XKŞ arasında razılaşmaya əsasən 1922-ci il sentyabrın 10-dan xaricdən gətirilən Avropa mənşəli mallara RSFSR-in vahid gömrük Tarifinin (7 fevral1922-ci il), 1922-ci il oktyabrın 15-dən isə Cənubi Qafqaz hüdudlarından çıxarılan mallara isə RSFSR ixrac ticarətinə aid Tarifinin (7 iyul 1922-ci il) tətbiq edilməsinə başlanıldı [21, 1922,12 oktyabr , № 97].

Cənubi Qafqaz XXTK-nin 1923-cü il fevralın 15-də keçirilən kollegiya yığıncağında komissar müavini M.Hacınskinin məruzəsində irəli sürülən təkliflər əsasında ixrac şərtlərində dəyişikliklər aparıldı. M.Hacınskinin sədrliyi ilə XXTK-nin 1923-cü il fevralın 27-də keçirilən yığıncaqda federasiyaya daxil olan respublikaların xarici ölkələrdə ticarət əməliyyatlarını sərbəst aparmasına səlahiyyətin verilməsi məsələsinə baxıldı [9, 17].

Cənubi Qafqaz XXTK kollegiyasının 1923-cü il aprelin 24-də keçirilən yığıncağında Bakı yarmarkasında Qərbi Avropa şirkətlərinin iştirakı məqbul sayılmadı: "Bakı yarmarkasına Qərbi Avropa mallarının daşınmasına icazə verilməsi sovet sənayesinin maraqlarına zərbə vurmaqla bərabər, eyni zamanda Avropanın müstəmləkəçilik siyasətinin diqqətini Şərq bazarına yönəltmiş olur" [9, 49-49[arx]].

1922-ci ilin aprelindən Azərbaycan SSR XKŞ və Xalq Maliyyə Komissarlığının təsdiq etdiyi "Azərbaycan SSR-də gömrük nəzarəti haqqında Əsas-

namə”yə görə Gömrük idarəsi yenidən Maliyyə Komissarlığının tərkibinə daxil edildi [5, 1].

RSFSR hökuməti 1922-1923-cü illərdə xarici ticarət üzərində dövlət inhisarı şəraitində gömrük siyasətinin həyata keçirilməsi haqqında bir sıra qərarlar verildi. 31 mart 1922-ci il tarixli dekretlə gömrük sisteminin təşkilati əsasları müəyyən edildi. 1922-ci il martın 9-da idxal Tarifi, iyunun 15-də isə ixrac ticarəti haqqında ilk sovet gömrük Tarifi qəbul edildi. Sərhədyanı ticarət əməliyyatlarının ənənəvi aparıldığı ölkələrə münasibətdə, habelə istisna hal kimi, Xəzər dənizi sahillərində yerləşən gömrükxanalarda güzəştli gömrük tariflərinin tətbiq edilməsinə başlanıldı [20; 23].

Beləliklə, tədqiq edilən dövrdə xarici ticarət üzərində sovet dövlətinin inhisarının bərqərar edilməsi Azərbaycanda gömrük işinin aşağıdakı xüsusiyyətlərini müəyyən etdi:

- 1920-1921-ci illər ərzində Azərbaycan SSR xarici ticarət əməliyyatlarının təşəbbüsçüsü kimi çıxış edir, gömrük nəzarəti və qaydalarının tətbiq edilməsi sahəsində sərbəst qərarlar qəbul edirdi;
- 1922-ci ildən Cənubu Qafqaz respublikalarının, o cümlədən Azərbaycanın iqtisadi müstəqilliyinin qarşısına sovet Rusiyası tərəfindən sipər çəkildi, idxal-ixrac əməliyyatları qəti olaraq mərkəzləşdirildi;
- respublika ərazisində yerləşən gömrükxanaların işinə nəzarət tədricən sovet Rusiyasının səlahiyyətinə keçdi;
-sovet gömrük xidməti qarşısında yeni vəzifə qoyuldu - rüsum və vergi yığılması funksiyası arxa plana keçdi, gömrükxanaların fəaliyyətində əsas yeri xidmətin nəzarət funksiyası, xüsusilə qaçaqmalçılığa qarşı mübarizə tutdu;
- xarici ticarət və gömrüyün idarəetmə aparatının məsul işçiləri sırasına qeyri-azərbaycanlılar, xüsusi ilə rus, erməni, gürcü və digər millətlərin nümayəndələri təyin edildi.

## ƏDƏBİYYAT


1. ARDA Bakı filialı, f.126 (Bakı gömrükxanası), siy.$1^S$, iş 1.
2. ARDA Bakı filialı, f. 126, siy. $1^S$ iş 14.
3. ARDA, f.85 (Azərbaycan SSR Maliyyə Komissarlığı), siy.3, iş 164.
4. ARDA, f. 85, siy.3, iş 169.
5. ARDA, f. 363 (Azərbaycan SSR-in gömrükxanaları), siy.3, iş 286.
6. ARDA, f. 363, siy.1, iş 777.
7. ARDA, f.411(Azərbaycan SSR Nazirlər Soveti), siy. 1, iş 49
8. ARDA, f.411, siy.1, iş129.
9. ARDA, f.411, siy. 4, iş 27.
10. ARDA, f.796, siy.6, iş 9.
11. ARDA, f.1610, siy.$1^S$, iş 98.
12. Azərbaycan tarixi. Üç cilddə. Cild 3. Bakı: Elm, 1973, 548 s.
13. Bünyadov Q. Xalq təsərrüfatının bərpası dövründə Azərbaycanın xarici ticarəti //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, iqtisadiyyat seriyası, 1967, № 1, s. 55-59.
14. Dadaşova Ramilə. Azərbaycanın Avropa dövlətləri ilə münasibətləri (1920-1922-ci illər). Tarix e. n. alimlik dər. al. üçün təq. ed. dissertasiya. Bakı: 2003, s. 95.
15. İsakov H. Azərbaycan SSR-də gömrük xidməti tarixindən (1920-1990)//Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: Elm, 2007, 220 s.

16. Quliyev R. Azərbaycan Xalq Cümhuriyyəti və milli gömrük qanunvericiliyinin yaradılması //Dirçəliş – XXI əsr, 2011, № 160-161.
17. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 53-cü cild.
18. Бабаева С. Куда исчезла Бакинская ярмарка //Молодежь Азербайджана, 1990, 18 декабря.
19. «Бакинский рабочий», 1922-ci il.
20. Габричидзе Б.Н., Полежаев Д.М. Становление и развитие таможенной службы в Советском государстве (1917—1991 гг.) // Государство и право. -1992. -№ 10.
21. « Заря Востока.
22. «Нефтяное хозяйство Азербайджана», Баку,1926, №3, л. 443-444.
23. Свод узаконений РСФСР, 1922, №24, ст. 259.
24. Сонкин М.Е. Окно во внешний мир. Экономические связи Советского государства в 1917-1921 гг. М.: Мысль,1964.- 212 с.

## ПОПЫТКИ ПРОВЕДЕНИЯ САМОСТОЯТЕЛЬНОЙ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ И ОРГАНИЗАЦИЯ СОВЕТСКОГО ТАМОЖЕННОГО АППАРАТА В АЗЕРБАЙДЖАНСКОЙ ССР (1920-1923 гг.)

**Р.А.ГУЛИЕВ**

### РЕЗЮМЕ

В статье анализируется попытки руководства Азербайджана по созданию выгодных внешнеторговых условий и преобразование существующих таможенных структур республики в первые годы Советской власти. Но таможенное управление постепенно переходит в распоряжение центральных советских органов. Автор показывает, что начиная с 1922 года таможенная служба, соответственно, внешнеторговые операции управлялись представителями Советской России по указанию Москвы. Овладение выгодных экономических дивидендов, за счет монополизации экспортно-импортных операций, в том числе нефтяных запасов Азербайджана являлась основной целью руководства РСФСР, во главе с В.И. Лениным.

**Ключевые слова:** советская таможня, таможенный тариф, внешнеэкономическая политика

## EFFORTS TO CONDUCT AN INDEPENDENT FOREIGN POLICY AND THE ORGANIZATION OF THE SOVIET CUSTOMS STAFF IN THE SOVIET SOCIALIST REPUBLIC OF AZERBAIJAN (1920-1923)

**R.A.GULIYEV**

### SUMMARY

The article analyzes the efforts of the Azerbaijani leadership to create favorable conditions for foreign trade and conversion of existing customs agencies of the republic in the early years of Soviet power. However, customs gradually passed into the hands of central governmental bodies. The author shows that since 1922, the customs service, respectively, foreign trade transactions were controlled by the representatives of Soviet Russia foreign trade transactions. Mastering the lucrative economic dividends due to the monopolization of export-import operations, including oil reserves of Azerbaijan is the main purpose of the SSSR leadership, headed by V.I.Lenin.

**Key words:** Soviet customs, customs tariff, foreign-economic policy